

**HACIMƏMMƏD MƏMMƏDOV**
*"Qızıl qələm" media mükafatı laureatı*

# SƏNƏTKAR ÖMRÜ, VƏTƏNDAŞ TALEYİ, QİBLƏSİNİ SEVGİSİNDƏ TAPAN ŞAİR

*(Şahməmməd Dağlaroğlunun 65 yaşına)*

**Şahməmməd Nurulla oğlu Soltanovun - Şahməmməd Dağlaroğlunun 65 yaşı tamam oldu. Bu 65 il təkcə yaşanmış illərin, ayların, günlərin stenoqrafik hesabatı deyil, ömrü şərəflə, poeziya ilə keçən, yaradıcılıq yanğısı ilə kamilləşən yaşantılardan xalqın sabahına hay verən və nəhayət, ölkənin düşdüyü çətinlikləri ürəklə yaşayan bir sənətkar və vətəndaş ömrünün toplusudur.**

Şahməmməd Dağlaroğlu cəmiyyətdə istedadlı, geniş təbli bir şair kimi, qəzet redaktoru, publisist və təcüməçi kimi tanınır. Onun yaradıcılığı çoxşaxəlidir. Şahməmməd Dağlaroğlu yaradıcılığının püxtələşmiş çağında müxtəlif dillərdən tərcümələr edir, yeni-yeni əsərlərini yaradır.

İsmayıllımızın ictimai və ədəbi mühitində xüsusi yeri olan Şahməmməd Dağlaroğlunun yaradıcılığı gənclərin, yeniyetmələrin mənəvi və estetik tərbiyəsinə əhəmiyyətli təsir göstərir. Eşq, məhəbbət, halallıq, haqq və əməksevərlik Ş.Dağlaroğlu şerlərinin əsas mövzusunu təşkil edir.

65 yaş ölkəmizdə kişilər üçün təqaüd yaşı hesab olunsa da, mənim əqidəmcə, bu, kamil insanın müdriklik çağıdır. Ömrün o yaş zirvəsinə ucalanlar çox olsa da müdrikliyə, kamilliyə çatanlar, elin-obanın hörmətin qazananlar olduqca azdır. Ş.Dağlaroğlu isə hörməti, ağsaqqal, məsləhətçi olmağı 30-40 il əvvəl qazanıb. Öz ləyaqəti, səmimi rəftarı, geniş dünyagörüşü ilə. Bir sözlə, şəxsi nümunəsi ilə.

Vətənə, xalqa, torpağa bağlılıq onun varlığına içdiyi ana südü, diş göynədən Pirəqanım bulaqlarının suyu ilə hopmuşdur. Yəqin bu səbəbdəndir ki, hər sözündə məna, kəsər, simasında ciddilik, tələbkarlıq, od-alov var.

Şair Şahməmməd Dağlaroğlunun yaradıcılığını təhlil etməkdən uzağam. Çünki onun yaradıcılığının məziyyətləri barədə çox deyilib, çox yazılıb. Şair həmyerlimiz Ağasən Bədəlzadə, yazar-pedaqoq Rəna Mirzəliyeva, şair Xalıq Yusifoğlu, jurnalist Lətifə Əliyeva dəfələrlə onun yaradıcılığından bəhs edən yazılar yazmış, təhlillər aparmışlar. Odur ki, şairin insani keyfiyyətlərindən, kamil şəxsiyyətindən söz açmağı ön plana çəkirəm.

Yaşca məndən balaca olsa da, onun bir sözü zaman-zaman qulaqlarımda səslənir: "Kimin kiminlə dost, kiminləsə düşmənliyi mənim üçün meyar deyil. Mən hamı ilə dostam". Bu onun böyüklüyünü, qəlbinin saf və geniş olduğunu, düşüncəsinin duruluğunu göstərir. Şairin sadə qəlbinin hərarəti ağ vərəq üstünə köçürtdüyü misralarda daha aydın duyulur.

Bu insan kindən, küdurətdən uzaqdır, Bir bulaqdan su içsək də, mən onun kimi deyiləm, çox kinliyəm, mənə badalaq gələni heç bağışlamıram. Elələrini Allahın ümidinə buraxmışam...

Ş.Dağlaroğlunun fəal ictimaiyyətçi olması məni sevindirir, çoxlarını isə heyrətə salır. Görəsən, İsmayıllıda elə bir ictimai-siyasi, elmi, mədəni, kütləvi və digər



göstərəni, məsləhətçisi olan şairlərimizdəndir. Mübaliğəli görünsə belə, hazırda onun qədər gənclərin, təzə yazmağa başlayanların əlindən tutub irəli aparan başqa bir şair tanımıram. 50-dən çox kitaba redaktorluq etməsi, dediklərimin əyani sübutudur. Onun olduğu yerdə hər zaman xoş əhval ruhiyyə, sözə, şeirə, sənətə sevgi var. Hətta, şeirlərindən biri məhz bu fikirlə bitir: "Ölsəm, dəfn eləyin harda sevgi var".

Xoş təsadüfdən bu yaxınlarda şair Şahməmməd Dağlaroğlu ilə doğulduğumuz, ayaq açıb yeridiyimiz, suyunu içib, havasını udduğumuz Pirəqanımın kəndinin ziyarətində olduq.

Gəzdik, dolandıq. Ulularımızın qəbirlərini ziyarət etdik. Vaxt tapıb bu misraları da orada qələmə almışam:

*Sənə ürəyimi açıram, şair,*
*Yuxuda dağları gəzib gəlmişəm.*
*O gözəl məkanda yetənə qədər,*
*Mən əl-ayağımı əzib gəlmişəm.*

*Ümidlə çıxmışam "Rəğbət"ə, "Pir"ə,*
*Baxmışam kəndimin həndəvərinə.*
*Qanqallar kök salıb gülün yerinə,*
*Dərdimi daşlara yazıb gəlmişəm.*

*Gəzdiyim cığırlar öz yerindədir,*
*Dərə yerindədir, düz yerindədir.*
*Yollarda saldığım iz yerindədir,*
*Həsrətə, hicrana dözüb gəlmişəm.*

*Qalıb "Sər küh"ündə atamın izi,*
*Üzür sularında anamın gözü.*
*O yerdə atamın qəbri, həm özü,*
*Bəs niyə əlimi üzüb gəlmişəm?*

*Yolları kol basıb, daralıb, şair,*
*Üzüm o həsrətdən saralıb, şair.*
*Kisəsiz kəndimi qar alıb, şair,*
*Hacıyam, təklikdən bezib gəlmişəm.*

Bəli, o ucalıqdan enib gəldik, Dağlaroğlu! Özümüzə yeni yurd-yuva qurduq. Böyüdük, təhsil aldıq, sevdik, sevildik, yazıb-yaratdıq.

Şeirlərin dillər əzbəridir. Onlar sənə uzun ömür, sənətkar taleyi bəxş edib. Yazdıqların sevilə-sevilə oxuyur, dinlənilir, yaddaşlara hopur. Sən öz qibləni sevgində tapan şairsən. İnanıram ki, gələcəkdə Şahməmməd Dağlaroğlu poeziyası tədqiqatçıları bu gün yazdıqlarına, yaradıcılığına işıq tutacaq haqqında monoqrafiyalar, tədqiqat əsərləri yazılacalar.

Səni yubileyin münasibəti ilə ürəkdən, xoş arzularla təbrik edirəm. TƏBİB bu ərəfədə bağışlayar yəqin ki, səni bağrıma basıb, öpüşlərə qərq edirəm.

mahiyyətli tədbir olurmu ki, bu insan onun iştirakçı olmasın?!

Hərdən mənə elə gəlir ki, Şahməmməd İsmayıllının canlı səlnaməsidir. Onun bir çox şeirlərini, hətta tanımadığım adamların dilindən eşidəndə yetərincə fərəhlənirsən. Bu şeirlərdə nələr yoxdur? Başı qarlı dağlarımız, güllü-çiçəkli çəmənlərimiz, buz kimi soyuq bulaqlarımız, barlı-bərəkətli torpaqlarımız, zəhmətsevər insanlarımız onun təsvirində daha cazibədar görünür. Bir də onun 44 günlük Vətən müharibəsi günlərində yazdığı döyüşən sətirlər sanki döyüşə çağırış, Qələbəyə hesablanmış fikir və düşüncələrdir. Xalqımızın döyüşkən ruhu bu şeirlərdə yüksək vətəndaşlıq hissi ilə vəsf olunub. Müəllifin özü qədər səmimi olan bu şeirləri sevməmək olmur. Bu şeirləri oxuyan hər kəsdən: Halal olsun kəlməsini eşitmək necə də xoşdur.

Şahməmməd Dağlaroğlu ilə yaxın qohumam - dayıoğlumdur. O, bir qohum kimi də gözəl keyfiyyətlərə malikdir. Sanki tale üzünə gülüb, insani keyfiyyətləri ona əsirgəmədən baxş edib. "Hamını sevməyə məndə ürək var", deyən şair yaxınlarına, əzizlərinə olan istəklə bərabər, ilk dəfə gördüyü insanlardan da mehrini, məhəbbətini, səmimiyyətini gizlətmir. O, vəfalı ömürgün yoldaşı, üç övladın dəyərli atası, 9 nəvənin müdrik babasıdır. Gün o gün olsun ki, uca Tanrı Şahməmməd Dağlaroğluya nəticəli illər də qismət etsin. Ömrünə 100 yaşın zirəsindən boylansın. Qismət olarsa, onda mənim yaşım Dədə Ələsgərin yaşından da çox olacaq...

Şahməmməd Dağlaroğlunun ömür yolundan, poeziyasından, insani keyfiyyətlərindən çox yazmaq olar. Amma buna bir o qədər ehtiyac duymadım. Çünki o, söz xiridarları tərəfindən sevilən, davamçılarının yol